

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 105 (21.006)

5 iyun 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə Toplantısında iştirak etmək üçün iyunun 4-də Türkiyə Respublikasına işgüzar səfərə getmişdir.

Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının dalğalandığı Bodrumun Milas Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı fəxri qarovul dəstəsini salamladı.

* * *

İyunun 4-də Bodrumda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Əlaqələrimizin daha da genişlənməsi üçün yaxşı potensialın mövcud olduğu qeyd edildi.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı geniş fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Nursultan Nazarbayevə Avrasiya Ali İqtisadi Şurasının iclasında Ermənistanın Gömrük İttifaqına üzvlüyü ilə bağlı Azərbaycanın mövqeyini dəstəklədiyinə görə öz adından və xalqımızın adından təşəkkürünü bildirdi.



## Heydər Əliyev Muzeyini 2014-cü ilin ötən dövrü ərzində 9048 nəfər ziyarət etmişdir



*2014-cü ilin iyun ayına kimi Heydər Əliyev Muzeyini 9048 nəfər ziyarət etmişdir ki, bunların da 371 nəfəri 27 xarici ölkədən gələn qonaqlardır. Yerli ziyarətçilərin sayı isə 8677 nəfər olmuşdur.*

Ötən dövr ərzində muzeydə müxtəlif mövzularda 61 açıq dərs keçilmişdir. Dərslərdə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas məktəblərinin tələbələri, orta məktəb şagirdləri, dövlət müəssisə və təşkilatlarının əməkdaşları iştirak etmişlər.

Açıq dərslərdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması, gələcək inkişafının təmin olunması, dövlətimizin dünyada tanıdılması istiqamətində gördüyü mühüm işlər barədə dinləyicilərə geniş məlumatlar verilmişdir.

Naxçıvan Muxtar Respublikasında yaradılan muzeylər içərisində Heydər Əliyev Muzeyi xüsusi əhəmiyyət kəsb edir. Görkəmli ictimai-siyasi və dövlət xadimi, dünya şöhrətli siyasətçi, Azərbaycan xalqının əbədiyaşar lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmiş ulu öndərimiz Heydər Əliyevin adını daşıyan Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 18 fevral 1999-cu il tarixdə imzaladığı Sərəncamla muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində yaradılmış və 1999-cu il mayın 10-da fəaliyyətə başlamışdır.

Muzeydəki eksponatlar ayrı-ayrılıqda elmi-tədqiqat mövzusudur. Azərbaycanın müasir dövlətçilik tarixinin və ümummilli liderimizin siyasi irsinin tədqiqatçıları burada elmi axtarışlar üçün dəyərli məlumatlar əldə edirlər. Fəaliyyət göstərdiyi 15 il ərzində muzeyin 230 mindən çox ziyarətçisi olmuşdur. Onların da 23 mindən çoxu xarici ölkə vətəndaşıdır. Həmçinin muzey eksponatlarını internet vasitəsilə izləmək mümkündür. Bu ilin ötən dövründə muzeyin internet saytına 10 mindən artıq istifadəçi daxil olmuş, muzeyi internet üzərindən ziyarət etmişdir.

Səbuhi HƏSƏNOV

## Seminar-müşavirədə dövlət proqramının icrası istiqamətində görülən işlər müzakirə olunmuşdur

*Dünən Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin Ordubad rayonunun Əndəmic kəndindəki Dayaq məntəqəsində seminar-müşavirə keçirmişdir.*

Müşavirəni giriş sözü ilə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov açmış, bölgədə meyvəçiliyin inkişafı istiqamətində görülmüş işlərdən danışmışdır.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" və bu proqramdan irəli gələn vəzifələrin yerinə yetirilməsi" mövzusunda çıxış etmişdir.

Nazirliyin mütəxəssisləri Həsən İsmayılov və Sabir Səfərov meyvə bağlarında aparılacaq aqrotexniki xidmət, xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirləri haqqında məlumat vermişlər.

Sonda verilən suallar cavablandırılmış, sahibkarlara buklet-informasiya kitabçaları paylanmışdır.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti

*İyunun 4-də Naxçıvan Tibb Kollecində Milli Qurtuluş Günü münasibətilə "Heydər Əliyev lektoriyası"nın "Heydər Əliyev və Azərbaycan" mövzusunda növbəti məşğələsi keçirilmişdir. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Tibb Kollecinin direktoru, tibb üzrə fəlsəfə doktoru İlhamə Mustafayeva açaraq ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən bəhs etmişdir.*

## "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Dövlət Universitetinin prorektoru, fəlsəfə elmləri doktoru, professor Məmməd Rzayev "Heydər Əliyev və Azərbaycan" mövzusunda məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, Heydər Əliyev idarəçilik fəlsəfəsinin əsas ideya-siyasi istiqamətini xalqın tarixi yaddaşının bərpası, sürətli inkişaf strategiyasının gerçəkləşməsi kimi mühüm amillər təşkil edir. Ulu öndərimiz hələ ötən əsrin 70-ci illərindən başlayaraq dahiyanə uzaqgörənliklə ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks layihələrin həyata keçirilməsinə nail olmuşdur.

Bu inkişaf və tərəqqi salnaməsinin yazıldığı illər ötən əsrin 90-cı illərinin əvvəllərində öz yerini dağıdıcılıq, təsərrüfatsızlıq dövrünə buraxmışdı. Həmin dövrdə cərəyan edən ölkədaxili və regional siyasi proseslər Azərbaycanı, eləcə də Naxçıvanı uçurumun bir addımlığına gətirib çıxarmış, Ermənistanın əsassız torpaq iddialarına rəvac vermişdi. Ümummilli liderimiz Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə Naxçıvanı işğaldan, məhv olmaqdan, düşmən əlinə keçməkdən xilas etmişdir.



Qeyd edilmişdir ki, Naxçıvanda ulu öndərin rəhbərliyi ilə ölkə əhəmiyyətli qərarlar qəbul edildiyi bir vaxtda Azərbaycanın digər bölgələrində siyasi hərc-mərclik, özbaşınalıq, vətəndaş müharibəsi baş qaldırmışdı. Ölkəmizin məhvə sürükləndiyi belə bir vaxtda xalq yeganə ümid və xilas yolunu Naxçıvandan başlanan qurtuluşda – ümummilli liderimizin böyük siyasətə qayıdışında tapdı. 1993-cü ilin iyununda dahi şəxsiyyət Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan düşdüyü bəlalardan qurtulmuşdur. Bu qayıdış yenicə müstəqillik qazanmış bir dövlətin müqəddəratını həll edən, onu inkişaf və tərəqqi yoluna çıxaran siyasi xəttin başlanğıcı, itirilmiş ümidlərin yenidən canlanması idi.

Ulu öndər Heydər Əliyevin ölkədə ali hakimiyyətə qayıdışı günü tariximizə "Milli Qurtuluş Günü" kimi daxil olmuşdur. Azərbaycan Respublikasının Milli Məclisi 1997-ci il 27 iyun tarixli qərarı ilə dahi şəxsiyyətin ölkə rəhbərliyinə qayıdışı gününü rəsmi olaraq Azərbaycan xalqının Milli Qurtuluş Günü elan etmişdir. Azərbaycanın işıqlı gələcəyinin təməlinin qoyulduğu 15 iyun əsl qurtuluş, xalqımızın fəlakətlərdən xilas olub qüdrətli bir dövlətin bünövrəsinin qoyulduğu gün kimi müasir tariximizə qızıl hərflərlə yazılmışdır.

Sonda ümummilli lider Heydər Əliyevin həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən sənədli film nümayiş etdirilmişdir.

## Maarifləndirici tədbir keçirilib

*Dünən Babək Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Cəhri kəndində ətraf mühitin mühafizəsi, həmçinin təbii qaz və elektrik enerjisindən düzgün istifadə qaydalarına həsr olunmuş tədbir keçirilmişdir.*

Cəhri kənd sakinlərinin iştirak etdiyi tədbirdə Babək rayon prokurorunun müavini, kiçik ədliyyə müşaviri Kənan Seyidov "Təbii qazın, elektrik və istilik enerjisinin talanması inzibati və cinayət məsuliyyəti yaradır" mövzusunda məruzə etmişdir. Bildirilmişdir ki, ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizin enerji təminatının yaxşılaşdırılması, bu sahədə yol verilən qanunsuzluqların və özbaşınalığın aradan qaldırılması üçün mühüm işlər görülmüşdür. Hazırda ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasi xətt ölkəmizi çox qısa bir zamanda enerji təhlükəsizliyinin təmin edildiyi bir dövlət kimi tanıtmışdır.

Bildirilmişdir ki, enerji potensialından düzgün və qənaətlə istifadə olunması hər birimizin vətəndaşlıq borcudur. Fiziki və hüquqi şəxslər tərəfindən məişətdə və müxtəlif istehsal sahələrində istifadə edilən təbii qazın, elektrik və istilik enerjisinin talanmasına qarşı mübarizənin hüquqi əsasları qanunvericilikdə nəzərdə tutulmuş müvafiq normativ-hüquqi aktlarla tənzimlənir. Buna görə də istər vəzifəli, istər hüquqi, istərsə də fiziki şəxslər təbii qazın, elektrik və istilik enerjisinin talanmasının qarşısını almaq üçün əllərindən gələni əsirgəməməli, bu cür neqativ hallarla qarşılaşdıqda müvafiq təşkilatlara, həmçinin hüquq-mühafizə orqanlarına lazımi köməkliklər göstərməlidirlər.



Babək rayon prokurorunun böyük köməkçisi, II dərəcəli hüquqşünas Vüqar Hüseynov "Ətraf mühitin qorunması sağlam həyatın başlıca amillərindəndir" mövzusunda çıxış edərək bildirmişdir ki, cəmiyyətin hər bir üzvünün ətraf mühiti qorumaq və ona qayğı ilə yanaşmaq vəzifəsi həm hüquqi, həm də əxlaqi dəyərlərlə ölçülür. Azərbaycan Respublikası Konstitusiyasının 78-ci maddəsində ətraf mühitin qorunmasının hər bir şəxsin borcu olması vətəndaşların əsas vəzifəsi kimi təsbit edilmişdir. Konstitusiyada nəzərdə tutulan vəzifələrin yerinə yetirilməməsi isə qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur. Buna görə də hər kəs təbiətin qorunmasında yaxından iştirak etməli, təbii sərvətlərimizin mühafizəsində əlindən gələni əsirgəməməlidir. Unutmaq olmaz ki, ekoloji tarazlığın qorunması həm də bizim sağlamlığımız üçün vacibdir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

Xəbərlər şöbəsi



### Azərbaycanın özü qədər əbədi

# Müstəqil Azərbaycanın xilaskarı və qurucusu

***Vətənimiz üçün kifayət qədər mürəkkəb və ağır bir dönəmdə xalqına arxa olan ulu öndər Heydər Əliyev Azərbaycanın çağdaş tarixində silinməz izlər qoymuşdur. Onun möhtəşəm ideya və əməlləri nəticəsində Azərbaycan dünya arenasında öz sözünü deyə bilən qüdrətli dövlətə çevrilmişdir. Ulu öndərimiz Heydər Əliyev bəşər tarixində siyasət olimpinə yüksələn nəhəng dövlət xadimlərindən biridir və onun həyat yolu doğma Vətənə sədaqət nümunəsidir. Dünyanın ən tanınmış siyasətçiləri belə, bu böyük zəka sahibinin misilsiz fəaliyyətini, dəyərli irsini artıq çoxdan nəsillərə örnək kimi dəyərləndirmişlər.***

Bu böyük insan haqqında deyilən sözlər, söylənilən fikirlər Heydər Əliyev şəxsiyyətinin dahiliyini müxtəlif tərəflərdən ifadə edir. Onun böyüklüyünü hər birimiz illər keçdikcə daha dərindən dərk edirik. O, şərəfli həyat və fəaliyyəti ilə tarixi min illərlə hesablanan, dünyanın zəfər salnaməsinə şanlı səhifələr yazmış qədim bir xalqın rəmzi səviyyəsinə yüksəlmişdir. Bu gün qədirbilən hər bir Azərbaycan vətəndaşının qəlbində ulu öndərin ölməz və işıqlı obrazı yaşayır. Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev Azərbaycan xalqının dövlətçilik tarixində o qədər böyük yeniliklərə, nəhəng işlərə imza atıb ki, deyilən sözlər onun cahanşümul fəaliyyətini əhatə etməkdə acizdir.

İllər ötdükcə biz Heydər Əliyev dühasının müstəqil və müasir Azərbaycanın tarixindəki əvəzsiz rolunu daha dərindən dərk edir, bu dahi şəxsiyyətin siyasi əzəməti, beynəlxalq nüfuzu barədə təkrar-təkrar düşünməyə mənəvi ehtiyac duyuruq. Çünki bu gün Azərbaycanın qüdrətli dövlətə çevrilməsi, dinamik sosial-iqtisadi inkişafı, dünya birliyində öz layiqli yerini daha da möhkəmləndirməsi məhz Heydər Əliyevin ideyalarının yaşamasının, siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir. İstər ölkəmizin tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyev müstəqil və suveren dövlətin simvolu, xarizmatik siyasət dahisi, cəsur insan və ən böyük vətəndaş kimi qalmışdır və qalacaqdır. O, Azərbaycanın ən yeni tarixində bütöv bir epoxanı özündə təcəssüm etdirən, müstəqil dövlətin siyasi, iqtisadi, hüquqi, sosial-mədəni, elmi əsaslarını yaradan, onların ardıcıl inkişafını təmin edən siyasi kursun və milli inkişaf strategiyasının müəllifidir.

Bu gün biz azərbaycanlıların ölkəmiz haqda danışanda fəxr edə biləcəyi, qürurla öyünəcəyi çox uğurları, nailiyyətləri vardır. Bu uğurların, istisna olmadan, hamısı ulu öndərimizin adı ilə bağlıdır. Müstəqil Azərbaycanda elə bir sahə yoxdur ki, onun inkişafında dahi şəxsiyyət Heydər Əliyevin zəhməti olmasın. Bütövlükdə, Heydər Əliyev epoxası yüksəliş epoxasıdır – iqtisadiyyatdan başlamış mədəniyyətə qədər müxtəlif sahələrdə yüksəliş zamanəsidir.

Taleyin hökmü ilə iki dəfə xilaskarlıq missiyasını üzərinə götürərək hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatmış, ona dayaq olmuş, zamanın ağır məngənəsindən onu xilas etmişdir. Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, müstəqilliyin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması məhz dahi şəxsiyyət Heydər Əliyevin titanik fəaliyyəti sayəsində mümkün olmuşdur.

Ümummilli liderimiz Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə muxtar respublikanı işğaldan, məhv olmaqdan, düşmən əlinə keçməkdən xilas etməklə Naxçıvana yeni bir həyat bəxş etmişdir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvandan başlanan müstəqillik hərəkatı bütün Azərbaycan siyasi mühitində aparıcı siyasi qüvvəyə çevrilməklə milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxarmışdı. Üçrəngli bayrağımız ilk dəfə milli liderin sədrliyi ilə Naxçıvan parlamentində qaldırılmış, Sovetlər Birliyinin süqut etmədiyi bir vaxtda cəsarətli addım atılaraq Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmışdı. Sovet qoşun hissələri və sərhəd dəstələri onlara məxsus silah-sursat və texnikanın Naxçıvanda saxlanılması şərtilə buradan çıxarılmış, onların bazasında ilk milli ordu yaradılmışdır. Dahi şəxsiyyətin rəhbərliyi ilə dövlətçiliyimiz naminə həyata keçirilən işlər təkcə bununla məhdudlaşmırdı. Belə ki, xalqımızın başına gətirilən tarixi cinayətə – 20 Yanvar faciəsinə də ilk dəfə Naxçıvan Muxtar Respublikası Ali Məclisində siyasi qiymət verilmiş, həmin günün "Milli Matəm Günü" kimi qeyd olunması, həmçinin 31 Dekabr – Dünya Azərbaycanlılarının Birlik və Həmrəylik Gününün təsis edilməsi qərara alınmışdı. Ölkəmizin inkişafında əsas hərəkətverici siyasi qüvvə olan Yeni Azərbaycan Partiyası da həmin dövrdə Naxçıvanda yaradılmış, müstəqil Azərbaycanın müasir siyasi tarixinin əsası qoyulmuşdur.

Naxçıvanda ulu öndərin rəhbərliyi ilə ölkə əhəmiyyətli qərarlar qəbul edildiyi bir vaxtda Azərbaycanın digər bölgələrində bunun əksi – siyasi hərc-mərclik, özbaşınalıq, vətəndaş müharibəsi baş qaldırmışdı. Ölkəmizin məhvə sürükləndiyi belə bir vaxtda xalq yeganə ümid və xilas yolunu Naxçıvandan başlanan qurtuluşda – ümummilli liderimizin böyük siyasətə qayıdışında tapdı. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü ölkəmizin dövlət müstəqilliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi uğrunda mübarizə və yeni Azərbaycanın qurulması dövrüdür. Bu dövrdə ümummilli lider doğma xalqının önündə gedərək Azərbaycanı tarixin ən qanlı burulğanından çıxara bilmiş və Azərbaycan tarixinə qurtuluş mübarizəsinin qalibi kimi daxil olmuşdur. Bu şanlı missiyanı ulu öndər son dərəcə çətin, mürəkkəb və ziddiyyətli tarixi şəraitdə yerinə yetirmişdir. O dövrün hadisələrini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov belə xarakterizə etmişdir: ***"1990-93-cü illərin Azərbaycanı məqsədli şəkildə xaos, anarxiya girdabına, vətəndaş qarşıdurmasına sürüklənirdi. Regionda strateji marağı olan güc mərkəzləri tərəfindən ölkəmizin parçalanması, quberniyalara və əyalətlərə bölünməsi planı artıq çoxdan cızılmışdı və işə salınmışdı. Belə bir şəraitdə xalq yeganə nicatını, ölkənin siyasi və iqtisadi böhrandan qurtulmasının, vətəndaş qarşıdurmasının aradan qaldırılmasının, dövlət müstəqilliyinin daimi və əbədi olmasının yolunu ümummilli lider Heydər Əliyevdə gördü. Təsadüfi deyil ki, milli liderin xalqın tələbi ilə siyasi hakimiyyətə qayıtdığı gün – 1993-cü ilin 15 iyunu tarixə "Milli Qurtuluş Günü" kimi daxil oldu. Azərbaycan milli və müstəqil dövlət kimi mövcudluğuna görə bu tarixi qayıdışa, milli qurtuluşa borcludur".***

1993-cü ilin iyun ayında ulu öndərimiz Bakıya getdikdən sonra ölkədə cərəyan edən siyasi-ictimai, iqtisadi proseslər, bütün sahələrdə inkişafa doğru dönüş yaradılması, həqiqətən də, ölkəmizə milli mənafelərimizi əldə rəhbər tutan xarizmatik və qətiyyətli liderin, əsl siyasətçinin rəhbərlik etdiyindən xəbər verirdi. O siyasətçidən ki, üzləşdiyi çətinliklərə, dövlət çevrilişi cəhdlərinə baxmayaraq, Azərbaycanı parçalanmaqdan, vətəndaş müharibəsindən qurtarmışdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin təcrübəsinin nəticəsi idi ki, Azərbaycanda 1993-cü ildən sonra dövlət quruculuğu uğurla həyata keçirilmişdir. Onun dühasının qüdrəti sayəsində ölkədə siyasi və milli-ideoloji birliyin təməli qoyulmuş, dövlətçilik ənənələri milli düşüncə tərzinə çevrilmişdir. Bir sözlə, dövlət quruculuğu sahəsində nailiyyətlər, qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin qurulması və sair bu kimi uğurlar Heydər Əliyev dühasının bəhrələri idi.

Ümummilli liderin qətiyyəti xalqın inamını özünə qaytarmış, ölkəmizdə sabitlik və əmin-amanlıq yaradılmış, uğurlu daxili və xarici siyasət sayəsində ölkəmiz xaosdan xilas olmuş, sivil demokratik inkişaf yolu ilə inamla irəliləyərək böyük nailiyyətlər qazanmışdır. Ulu öndər Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaradılmasını özünün dövlətçilik strategiyasının əsas istiqamətləri kimi müəyyənləşdirmişdir.

Bu gün tariximizin son yarıməsrlik dövrünə nəzər yetirəndə Azərbaycanın gələcəyinə istiqamətlənmiş, effektli, uzunmüddətli şərtlərin təminatını, intellektual və elmi potensialın inkişafını nəzərdə tutan, cəmiyyətin həyatına nüfuz etmiş praqmatik siyasətin təzahürlərini görürük. Azərbaycanın müstəqilliyinə yönəlmiş bu müdrik siyasətin təməlini qoymuş ulu öndər Heydər Əliyev çiyinlərində bütöv bir xalqın varlığını, bütün bəşəri keyfiyyətlərini, dövlətçilik missiyasını daşıyan böyük lider kimi millətin xarakterini, milli iradəni atdığı hər bir addımında əks etdirirdi. Görkəmli dövlət xadimi Heydər Əliyev təkcə öz ömrünün, bir insan həyatının müdriklik zirvəsində deyildi, həm də bütöv bir xalqın tarixinin yüksək zirvəsində idi. O, Azərbaycan xalqının müdriklik simvolu, müdriklik zirvəsi idi. Bu zirvədən baxanda yalnız bir ömrün yaşandığı illər deyil, bir xalqın dünəni, bu günü, sabahı görünürdü.

Ümummilli lider Heydər Əliyevin müdrik siyasətinin dəyəri məhz elmi prinsiplər üzərində qurulması, intellektual potensiala və malik olduğu zəngin təcrübəyə əsaslanmasında idi. Cəmiyyətin, xalqın inkişaf zəminini elmdə, intellektdə, mənəvi-əxlaqi dəyərlərdə görən bu dahi insan elmimizin, mədəniyyətimizin, ədəbiyyatımızın gözəl bilicisi və araşdırıcısı idi. ***"Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır"***, – deyən ulu öndər Azərbaycan xalqının qəhrəmanlıqlarla dolu tarixi keçmişinə, zəngin milli-mənəvi dəyərlərinə, maddi-mənəvi irsinə və onları yaşadan, inkişaf etdirən ziyalılara, elm, mədəniyyət və incəsənət xadimlərinə daim qayğı ilə yanaşmış, xalqın mənəviyyatını zənginləşdirən, onu bütün dünyada tanıdan milli dəyərlərimizin hərtərəfli inkişafı və yüksəlişi üçün əlindən gələni əsirgəməmişdir.

Bu gün hər birimiz sevinir və qürur hissi keçiririk ki, müstəqilliyin yolları ilə inamla irəliləyən Azərbaycanda ulu öndərin amal və əməlləri dönmədən həyata keçirilir. Ölkəmiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə yeni-yeni uğurlar qazanır. Respublikamız böyük addımlarla qarşıya qoyulmuş məqsədlərə doğru inamla irəliləyir. 1993-cü ilin Azərbaycanı ilə müasir dövr Azərbaycanını müqayisə etsək, ulu öndər Heydər Əliyevin və onun siyasi xəttinin müstəqil Azərbaycana bəxş etdiyi inkişaf və tərəqqinin əsl mahiyyəti ortaya çıxar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: ***"O vaxt Azərbaycanda xaos hökm sürürdü. Bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərc-mərclik var idi. Bu gün Azərbaycanda sülhdür, əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdı. Bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycan vətəndaş müharibəsi ilə üz-üzə qalmışdı. Bu gün Azərbaycanda milli birlik, milli həmrəylik mövcuddur. O vaxt Azərbaycanda total böhran hökm sürürdü. Bu gün dünyanın aparıcı dairələri etiraf edir ki, Azərbaycan ən qüdrətli ölkəyə çevrilməkdədir. Bütün bunları edən, bütün bunları yaradan xalqın dəstəyinə arxalanan xalqımızın ümummilli lideri Heydər Əliyev olmuşdur. Bütün bunlar onun zəhmətidir, onun əməyidir və bu gün biz xalqla birlikdə Azərbaycanı daha da inamla, daha da sürətlə inkişaf etdiririk".***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi kursunu dönmədən, ardıcıl və layiqli şəkildə həyata keçirir. Bu siyasi kurs Azərbaycanın siyasi və iqtisadi qüdrətinin artmasına və onun beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə gətirib çıxarmışdır. Məhz bu siyasi kursun nəticəsidir ki, indi respublikamızda heç də bütün ölkələrdə mövcud olmayan ictimai-siyasi sabitlik hökm sürür. Ölkəmizdə siyasi sabitliyin mövcud olması və iqtisadi inkişafın Heydər Əliyev modelinin uğurla həyata keçirilməsi respublikamızın sosial-iqtisadi inkişafına gətirib çıxarmışdır ki, bu səbəbdən də müasir Azərbaycan Respublikası bu gün, sözün əsl mənasında, öz möhtəşəm inkişaf dövrünü yaşayır.

Azərbaycanımızın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan da sürətli inkişaf yolundadır. Muxtar respublikamızda Heydər Əliyev yolunun bütün sahələrdə böyük uğurla davam etdirilməsi nəticəsində diyarımız gündən-günə çiçəklənir, həyata keçirilən nəhəng quruculuq tədbirləri Naxçıvanın hərtərəfli inkişafını təmin edir. Bütün bunlar onu göstərir ki, muxtar respublika əhalisi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olan sabitliyə və quruculuq işlərinə öz layiqli töhfəsini verməyə, nailiyyətləri daha da artırmağa çalışır. Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan ona görə inkişaf edir ki, ümummilli liderimizin yolu ilə gedir. Bütün bunlar isə ulu öndər Heydər Əliyevin yoluna sədaqətin bəhrəsi, Milli Qurtuluşdan başlanan inkişafın davamıdır.

Vətəni, torpağı sevmək, onun ağrısını, dərdini çəkmək, milli mənafeyi şəxsi mənafedən üstün tutmaq ən böyük vətəndaşlıqdır. Zəmanəsinin ən böyük azərbaycanlısı, böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyev də öz əməlləri və siyasi fəaliyyəti ilə məhz belə şəxsiyyətlərdən olduğunu sübut etmişdir O, Azərbaycan vətəndaşı olduğunu hər yerdə, böyük qürurla, fəxrlə söyləmişdir: ***"Mən fəxr edirəm ki, azərbaycanlıyam"***. Bu kəlmələri deyən dahi şəxsiyyət Heydər Əliyev xalqın qəlbində milli-mənəvi dəyərləri yaşatmaq üçün əbədi bir məşəl – Azərbaycançılıq ideyasından güc alan sönməz məşəli alovlandırmışdır. Dahi şəxsiyyət Heydər Əliyev öz ölkəsini yeni yüzilliyə, həm də yeni minilliyə müstəqil dövlət kimi gətirmişdir.

***Bütün ölkə vətəndaşları inanırlar ki, həyatını canından əziz bildiyi Vətəninə xidmətdə keçirmiş Heydər Əliyevin dühası işığında doğma Azərbaycanımız həmişə irəliyə və yüksəlişə doğru gedəcəkdir. Ulu öndər Heydər Əliyevin ideyaları həmişə olduğu kimi, bu gün də yolumuza işıq saçır, bizi yeni-yeni qələbələrə səsləyir. Ümummilli lider Heydər Əliyev xalqın qəlbində tayı-bərabəri olmayan heykəl, əsrlər boyu yaşayacaq abidə – şah əsər ucaltdı. Bu abidənin, şah əsərin adı Azərbaycandır – müstəqil və qüdrətli Azərbaycan!***

**Namiq MƏMMƏDOV**
*Azərbaycan Respublikasının əməkdar müəllimi*

# Ətraf mühiti qorumaq, təbiətə qayğı ilə yanaşmaq hər kəsin vətəndaşlıq borcudur

***Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1972-ci il 15 dekabr tarixli qərarına əsasən, hər il iyunun 5-i "Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü" kimi qeyd olunur.***

Azərbaycanda ətraf mühitin mühafizəsi, ekoloji problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlər ötən əsrin 70-ci illərindən etibarən daha intensiv xarakter almışdır. Ümummilli liderimizin rəhbərliyi ilə bu dövrdə ekoloji problemlərin həlli sahəsində mühüm qərarlar qəbul edilmiş, ictimaiyyətin diqqəti ətraf mühitin mühafizəsinə yönəldilmiş, geniş yaşıllaşdırma tədbirləri aparılmışdır.

Müstəqilliyin ilk illərində Azərbaycanda ekoloji problemlərin həlli diqqətdən kənarda qalmışdı. Lakin ümummilli liderimiz Heydər Əliyev ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra ətraf mühitin mühafizəsi, ekoloji təhlükəsizliyin təmin edilməsi sahəsində ardıcıl tədbirlər görülmüş, bu sahədə dövlət siyasətini tənzimləyən zəngin qanunvericilik bazası yaradılmışdır. Dahi şəxsiyyətin müəllifi olduğu Azərbaycan Respublikası Konstitusiyasında təbii ehtiyatlardan səmərəli istifadə, hər kəsin sağlam ətraf mühitdə yaşamaq və ətraf mühiti qorumaq hüquqları öz əksini tapmışdır. Bununla yanaşı, "Ekoloji təhlükəsizlik haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının qanunları da təbiətin qorunması, ekoloji mühitin sağlamlaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Ulu öndərin 2001-ci il 23 may tarixli Sərəncamına əsasən, ölkəmizdə ekoloji siyasəti həyata keçirən vahid dövlət idarəetmə strukturunun – Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılması bu sahəyə göstərilən dövlət qayğısının daha bir ifadəsinə çevrilmişdir.

Ölkəmizlə bir sıra beynəlxalq təşkilatlar arasında ekoloji problemlərin həllinə dair mühüm sazişlər imzalanmış və faydalı əməkdaşlıq qurulmuşdur. Belə ki, planetin mövcud təbii sərvətlərindən, bitki və heyvan ehtiyatlarından, sudan, atmosferdən, torpaqdan səmərəli istifadə edilməsi, qorunması, bərpası məqsədilə əməkdaşlığın qurulması və dövlətlərarası birgə fəaliyyətin təmin edilməsi məqsədilə Azərbaycan BMT-nin "İqlim dəyişmələri üzrə çərçivə Konvensiyası"na, "Kökünün kəsilmək təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında Konvensiya"ya, "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi üzrə Konvensiya"ya, "Bioloji müxtəliflik haqqında Konvensiya"ya, ümumilikdə isə 25-dən çox ekoloji konvensiyaya qoşulmuşdur.

Ölkə Prezidenti cənab İlham Əliyev bu sahənin inkişafına xüsusi diqqət göstərir. Dövlət başçısının sərəncamı ilə 2010-cu ilin ölkəmizdə "Ekologiya ili" elan edilməsi, həmin ildən başlayaraq beynəlxalq ekologiya sərgilərinin keçirilməsi ekoloji problemlərin həllinə göstərilən diqqətin daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikasında da əlverişli ekoloji mühitin yaradılması sahəsində ardıcıl tədbirlər görülür. Görülən işlərin nəticəsidir ki, beynəlxalq ekoloji təşkilatlar tərəfindən muxtar respublikada həyata keçirilən tədbirlər yüksək qiymətləndirilir. Belə ki, muxtar respublika ərazisinin 27 faizdən çoxunun xüsusi mühafizə olunması, fauna ehtiyatlarının qorunması məqsədilə ova qadağaların qoyulması, yaşıllıqların artırılması sahəsində görülən işlər nüfuzlu təşkilat və ekspertlər tərəfindən nümunə kimi qəbul edilir. Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun Qafqaz Təmsilçiliyinin direktoru Giorgi Sanadiradze Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə ünvanladığı məktubda muxtar respublikada təbiəti mühafizə sahəsində görülən işlərə yüksək qiymət verərək qeyd etmişdir ki, *"Muxtar respublikada ova qoyulmuş moratoriumun 10 ilə yaxın müddətdə fəaliyyətdə olması, xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması və gücləndirilməsi, yerli əhalinin məlumatlandırılması tədbirləri, təbiət komplekslərinin tədqiqi və monitorinqi artıq öz bəhrələrini verməkdədir... Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkında keçirilən biomüxtəlifliyin monitorinqi nadir və nəsli kəsilməkdə olan növlərin artım dinamikasında baş verən müsbət meyilləri göstərir... Bütün bu faktlar... Naxçıvan Muxtar Respublikasında həyata keçirilən təbiəti mühafizə siyasətinin düzgünlüyünü bir daha təsdiq edir".*

Muxtar respublikada təbii iqlim və torpaq xüsusiyyətləri nəzərə alınaraq yaşıllıqların qorunması və artırılmasına xüsusi diqqət yetirilir. Kəskin kontinental iqlim şəraitinin mövcud olmasına baxmayaraq, son illər meşələrin qorunması ilə bərabər, yeni yaşıllıqların, meyvə bağlarının salınması istiqamətində də mühüm işlər görülür. Qeyd edək ki, bu tədbirlərin əsası ulu öndərimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə – 1991-1993-cü illərdə qoyulmuşdur. Həmin illərdə blokadanın çətinliklərinə baxmayaraq, ümummilli liderimizin səyi nəticəsində burada yaşıllaşdırma iməciliklərinin keçirilməsinə başlanılmış, təbiətin, yaşıllığın qorunması və bərpası işlərinə diqqət artırılmışdır. 1995-ci ildən ötən dövrdə həyata keçirilən ekoloji tədbirlər nəticəsində isə muxtar respublikanın yaşıllıqlarla örtülü sahəsi artaraq 11 faizə bərabər olmuşdur.

Əlverişli ekoloji mühitin yaradılmasında mühüm amillərdən biri də təbiət abidələrinin, bitki və heyvan ehtiyatlarının qorunması və bərpa edilməsidir ki, bu da xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması hesabına mümkündür. Muxtar respublikamızda xüsusi mühafizə olunan təbiət ərazilərinin şəbəkəsi xeyli genişlənmişdir. 1969-cu ildə Ordubad Dövlət Təbiət Yasaqlığı, 2003-cü ildə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, 2005-ci ildə "Arazboyu" Dövlət Təbiət Yasaqlığı, 2009-cu ildə "Arpaçay" Dövlət Təbiət Yasaqlığı yaradılmışdır. Xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılmasında əsas məqsədlərdən biri də mövcud ekoturizm potensialından səmərəli istifadə olunmasıdır. Bu baxımdan milli park statuslu təbiət obyektlərinin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Ölkə Prezidentinin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının yaradılması təbiəti mühafizə ilə bərabər, ekoturizmin inkişafına da əlverişli şərait yaratmışdır.

Muxtar respublika təbiətinin zənginliyi həm də burada nadir bitki və heyvan növlərinin mövcudluğu ilə ölçülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən, ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair iki cilddən ibarət "Qırmızı kitab" çap edilmişdir. Bu da sayı azalmaqda olan növlərin mühafizə edilməsi və artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Böyük təbiətşünas alim, akademik Həsən Əliyev deyirdi ki, *"Təbiətin keşiyini çəkmək üçün söz silahının gücündən istifadə etmək lazımdır".* Ekoloji təfəkkürün formalaşması və inkişafı aparılan maarifləndirmə işlərindən asılıdır. Hazırda muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir, teleradio verilişləri və qəzet materialları hazırlanır, əhali arasında maarifləndirici söhbətlər aparılır.

Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"...Təbii sərvətlərə qayğı ilə yanaşılması, planetin genefondunun qorunması, ekoloji sağlamlıq və digər qlobal problemlər ayrılıqda hər bir dövləti ciddi düşündürsə də, onları yalnız birgə səylərlə həll etmək mümkündür..."*** Muxtar respublikada təbiəti mühafizə sahəsində görülən işlər, bu sahəyə göstərilən dövlət qayğısı bundan sonra da davam etdiriləcəkdir. Çünki ətraf mühitdən istifadə etmək hər bir vətəndaşın hüququ olduğu kimi, onun qorunması da hər birimizin vətəndaşlıq borcudur.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

---

# Su təsərrüfatı və meliorasiya işçiləri peşə bayramlarını yüksək nailiyyətlərlə qeyd edirlər

***Muxtar respublikamızda mövcud su ehtiyatlarından səmərəli istifadə etməyə, su təminatının yüksəldilməsinə böyük əhəmiyyət verilir. Suya olan tələbatı ödəmədən xalq təsərrüfatı sahələrinin inkişafını təmin etmək mümkün deyildir. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollektivinə bu vəzifələri yerinə yetirmək üçün hərtərəfli şərait yaradılıb. Bu şəraitdən səmərəli istifadə etməyə səy göstərən su təsərrüfatı və meliorasiya işçiləri 2013-cü ili bir sıra nailiyyətlərlə başa vuraraq 2014-cü təsərrüfat ilinə uğurla başlayıblar.***

Görülən işlər və qarşıda duran vəzifələrlə bağlı geniş məlumat almaq məqsədilə komitənin şöbə müdiri Səttar Nəsirovla həmsöhbət olduq. Müsahibim bildirdi ki, komitənin qarşısında qoyulan başlıca məsələ muxtar respublikanın su ilə təminatına nail olmaqdır. Ona görə də mövcud su mənbələrindən səmərəli istifadə edilməsinə nail olmaq, bu qiymətli sərvəti torpaq mülkiyyətçilərinə vaxtında çatdırmaq üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Kanal və arxların lildən təmizlənməsi, suvarma boru xətlərinin təmiri və yenilərinin çəkilməsi ötən il də davam etdirilib. Belə ki, 179,7 kilometr beton və torpaq kanallar, 493,5 kilometr ara arxları lildən təmizlənərək işlək vəziyyətə gətirilib, 20,4 kilometr yeni suvarma boru xətti çəkilib, 7,6 kilometr suvarma boru xətti təmir olunub.

Bununla bərabər, 6,3 kilometr yeni kaptaj tikilib, 0,93 kilometr kaptajda təmir başa çatdırılıb. 46,1 kilometr içməli su xətti çəkilib, 16,4 kilometr içməli su xəttində təmir işləri aparılıb.

Əkinəyararlı torpaqlarda şoranlaşma və bataqlaşma ilə mübarizə aparmaq qarşıya qoyulan əsas vəzifələr sırasındadır. Bunun üçün muxtar respublikada mövcud olan kollektor-drenaj şəbəkələrinin daim işlək vəziyyətdə saxlanılması təmin edilib, ötən il su itkisinə yol verməmək, şoranlaşmanın qarşısını almaq üçün geniş tədbirlər həyata keçirilib. Belə ki, bəhs olunan dövrdə 110,5 kilometr kollektor lildən təmizlənib, 2,95 kilometr yeni açıq kollektor və 3,52 kilometr qapalı drenaj tikilib.

Muxtar respublikada mexaniki suvarma üsulundan da geniş istifadə olunmaqdadır. Komitənin balansında olan, ikinci suvarma mənbəyi kimi istifadə edilən 103 nasos stansiyası və 840 subartezian quyusu istismar olunmaqdadır. Ötən il həmin su mənbələrindən səmərəli istifadəni təmin etmək məqsədilə 74 nasos stansiyasında, 649 subartezian quyusunda təmir işləri aparılıb. Görülən işlər həm nasos stansiyalarından, həm də subartezian quyularından məqsədyönlü istifadəyə şərait yaradıb.

Müsahibim onu da bildirdi ki, muxtar respublikamızda tariximizi özündə yaşadan kəhrizlər lap qədim zamanlardan əhalinin içməli və suvarma suyuna olan tələbatının ödənilməsində əsas hidrotexniki qurğu rolunu oynayıb. Bir neçə ildir ki, kəhrizlərin təmir-bərpa işləri yüksək səviyyədə aparılır. Kəhrizlər İdarəsi tərəfindən belə su mənbələrində 2013-cü ildə də təmir işləri davam etdirilib, 15 kəhrizdə təmir-bərpa işləri başa çatdırılaraq əhalinin istifadəsinə verilib. Beş kəhrizdə isə işlər davam etdirilməkdədir. Kəhrizlərdə aparılan işlərin daha da genişləndirilməsi nəzərdə tutulub.

Komitə qarşısında duran vəzifələrdən biri də muxtar respublikanın yaşayış məntəqələrini və əkin sahələrini yaz mövsümündə sel sularından qorumaq üçün hər il aparılan sahilbərkitmə işləridir. 2013-cü ildə çaylarda və selovlarda 74,6 kilometr sahilbərkitmə işi aparılıb.

Su anbarlarına yığılmış suyun və vaxtında görülmüş tədbirlərin hesabına ötən ilin suvarma mövsümü uğurla başa çatıb. Belə ki, su istifadəçilərinə 265,2 milyon kubmetr suvarma suyu verilib və bunun müqabilində təkrar suvarma nəzərə alınmaqla, 217332 hektar ərazi suvarılıb.

Səttar Nəsirovun sözlərinə görə, 2014-cü ilin birinci rübü də uğurla başa çatıb. Belə ki, bəhs olunan dövrdə nasoslarda, subartezian quyularında, magistral kanallarda, ara arxlarda və digər hidrotexniki qurğularda tələb olunan təmir-bərpa işləri aparılıb, 56 kilometr magistral kanallar, 147 kilometr ara arxlar, 19,6 kilometr kollektorlar lildən təmizlənib, 27 kilometr təzyiqli yeni suvarma boru xətti çəkilib, 3,3 kilometr təzyiqli boru xətti təmir olunub, 27 kilometr yeni boru xətti çəkilib, 32,7 kilometr içməli su xətti təmir edilib. Bundan başqa, 86 ədəd nasos stansiyasında, 118 subartezian quyusunda təmir işləri aparılıb, Araz çayı istisna olmaqla, çaylarda və selovlarda 10,2 kilometr məsafədə selə qarşı istiqamətləndirici bəndlər salınıb.

Cari təsərrüfat ilinin suvarma mövsümünü uğurla başa çatdırmaq üçün su ehtiyatına nail olmaq məqsədilə sututarlarda tələb olunan təmir işləri aparılıb, su anbarlarına suyun yığılmasına başlanılıb. 2014-cü ildə sututarlara 183 milyon kubmetr su yığılıb. Hazırda həmin sututarlarda 175 milyon kubmetr su ehtiyatı vardır. 31 may 2014-cü il tarixə su istifadəçilərinə 78,4 milyon kubmetr suvarma suyu verilib, 64 min 687 hektar sahə suvarılıb.

Bildiyimiz kimi, hazırda muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərində, rayon mərkəzləri və ətraf kəndlərdə içməli su və kanalizasiya şəbəkələri yenidən qurulur.

Azərbaycan Hökuməti ilə Asiya İnkişaf Bankı tərəfindən maliyyələşdirilən "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" çərçivəsində Naxçıvan şəhəri üçün tikilən Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin tikintisi başa çatdırılaraq ölkə başçısının iştirakı ilə istifadəyə verilib. İqtisadi cəhətdən xeyli səmərəli olan yeni nanosüzgəcli qurğu ənənəvi qum süzgəclərindən fərqli olaraq, sudakı bütün zərərli mikrobları tutaraq saxlayır. Bununla da, su təbii mineral tərkibi saxlanılmaqla təmizlənir. Nanosüzgəcdən keçən su içməyə tam yararlı olur və emal zamanı onun xlordan istifadə etməklə zərərsizləşdirilməsinə ehtiyac qalmır. Suyun sərfinə, təzyiqinə, elektrik keçiriciliyinə və bulanıqlığına idarəetmə mərkəzində quraşdırılan kompüterlə nəzarət olunur və iş prosesi avtomatik idarə edilir. Kompleksdə ümumi tutumu 25 min kubmetr olan 3 su anbarı tikilib. Su anbarlarının inşası zamanı hündürlük fərqinin nəzərə alınması şəhərin su təchizatının özüaxımlı rejimdə təmin olunmasına imkan verib. Böyük dövlət qayğısının daha bir ifadəsi olan bu tədbir hesabına bu gün Naxçıvan şəhər əhalisi yüksəkkeyfiyyətli içməli su ilə təmin olunur.

Muxtar respublikanın rayon mərkəzlərində və rayon mərkəzlərinə yaxın kəndlərdə içməli su və kanalizasiya şəbəkələrinin yenidən qurulması işləri davam etdirilməkdədir.

Bundan başqa, muxtar respublikada Azərbaycan Hökuməti ilə İslam İnkişaf Bankının birgə maliyyələşdirdiyi "Naxçıvan Muxtar Respublikasında selə qarşı tədbirlər: suvarılan ərazilərin modernləşdirilməsi və genişləndirilməsi" layihəsi həyata keçirilməkdədir.

Su təsərrüfatı sahəsində 2014-cü ilin ən uğurlu hadisələrindən biri aprel ayının 21-də Sədərək rayonunda yeni nasos stansiyasının istifadəyə verilməsidir. Azərbaycan Respublikası ilə İslam İnkişaf Bankı arasında imzalanmış müqaviləyə əsasən, layihənin icrasına 5 milyon manata yaxın kredit ayrılıb. Layihədə nəzərdə tutulan tədbirlər keyfiyyətlə və qısa müddətdə başa çatdırılıb, yeni nasos stansiyası tikilib. Bu, rayonda əkinəyararlı torpaqların 40 faizinin dayanıqlı suvarma suyu ilə təmin olunmasına imkan verib. Eyni zamanda yeni nasos stansiyası hesabına uzun müddət əkilməyən 1500 hektar torpaq sahəsi yenidən əkin dövriyyəsinə qatılıb.

Səttar Nəsirov stansiyanın texniki göstəriciləri barədə məlumat verərək bildirdi ki, yeni nasos stansiyasında 1-i ehtiyat olmaqla, 3 nasos quraşdırılıb. Hər birinin gücü 550 kilovat-saat olan nasosların su sərfi saatda 1800 kubmetrdir. Ərazidə suqəbuledici hovuz tikilib. Kanaldan hovuza daxil olan su nasoslar vasitəsilə diametri 800 millimetrlik təzyiqli boru xəttinə vurulur. Təzyiqli boru xəttinin üzərində 6 suburaxıcı vardır. Həmçinin 1941 metr uzunluğunda müxtəlifdiametrli paylayıcı boru xətləri çəkilib, 73 ədəd suötürücü qapı qoyulub. Nasos stansiyasını elektrik enerjisi ilə təmin etmək üçün ərazidə 2 min kilovat gücündə transformator quraşdırılıb, 3700 metr uzunluğunda elektrik xətti çəkilib.

Bununla bərabər, Kəngərli rayonunda 3000 hektar suvarılmayan torpaq sahəsini suvarma suyu ilə təmin etmək üçün Uzunoba Su Anbarından qidalanan təbii axınlı boru xəttinin, nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisinə başlanılıb və tikinti işləri sürətlə davam etdirilir.

Görülmüş və görülməsi nəzərdə tutulan işlər muxtar respublikamızda suya olan tələbatın ödənilməsinə xidmət edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər il iyun ayının 5-nin "Su təsərrüfatı və meliorasiya işçiləri günü" peşə bayramı kimi qeyd edilməsi ilə bağlı 14 may 2014-cü il tarixdə Sərəncam imzalayıb. Bu gün peşə bayramını böyük uğurlarla qeyd edən Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollektivi 2014-cü ildə də qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün var qüvvəsi ilə çalışır.

**Muxtar MƏMMƏDOV**

Xalq yaradıcılığı

# İlmələrdə yaşayan tarix

*Azərbaycan xalçalarının ayrılmaz bir parçası olan Naxçıvan xalçaları üzərindəki təsvirlər dini-mifoloji motivlərin zənginliyi ilə seçilir.*



Qeyd etmək lazımdır ki, dünyada e.ə. V əsrə aid olan ən qədim xalçalar türk xalqlarına mənsubdur. Azərbaycan türkləri qədim zamanlardan müxtəlif xalçalar toxusa da, onların çox az bir qismi günümüzə gəlib çatmışdır. Araşdırmalar xalçalar üzərindəki təsvirlərin Azərbaycan xalqının həyat tərzini, onun mifoloji görüşlərini əks etdirdiyini təsdiq edir. Xalçalar üzərindəki naxışların yaranma tarixi e.ə. IV-II minilliklərə gedib çıxır. Xalçalardakı mifoloji motivlər olduqca müxtəlifdir. Bunlar arasında həyat ağacı, qarşı-qarşıya duran heyvan rəsmləri xüsusilə mühüm yer tutur. İnsanların həyat tərzi ilə bağlı olan ovçuluq və heyvandarlıq da xalça təsvirlərinin əsas motivlərindəndir. Bu mövzu olduqca geniş olduğundan biz yalnız bəzi məqamlar üzərində dayanmağı vacib sayırıq.

Naxçıvan xalçalarında çox geniş yayılmış motivlərdən biri həyat ağacıdır. Bəzi ağaclar meyvələri və çiçəkləri ilə birlikdə təsvir edilmişdir. Belə həyat ağacı təsvirini Nüsnüs məscidində saxlanan xalçanın üzərində daha aydın şəkildə görmək mümkündür. Bəzi xalçaların üzərində ağacların zirvəsində arxa-arxaya yerləşdirilmiş quş rəsmləri toxunmuşdur. Bu tip motivlərdən e.ə. IV minillikdə, Erkən Tunc dövründə keramika məmulatının naxışlanmasında istifadə edilmiş, e.ə. II minilliyin sonu və I minilliyin əvvəlində isə geniş yayılmışdır. İkibaşlı quş rəsmlərinə Kür-Araz mədəniyyətinə aid gil qablar üzərində də rast gəlinmişdir. Quş təsvirlərinə Orta və Son Tunc dövrünə aid boyalı və boz rəngli gil qablar üzərində daha çox rast gəlinir. Türk xalqlarının mifologiyasına görə, gözəl quş göy aləmini təmsil edir. İnanca görə, dünyasını dəyişən uşaqların ruhu quşa dönərək göylərə çəkilirmiş.

Xalçalar üzərindəki həyat ağacı təsvirlərinin bənzərlərinə Orta Tunc dövrünün boyalı qabları üzərində və Gəmiqaya təsvirlərində də rast gəlinir. Ordubad rayonundakı Əngəş məscidində qorunan xalçanın üzərində fərqli bir ağac rəsmi vardır. Bu xalçada qarşı-qarşıya duran dörd ağac, onların arasında səkkizüzlü fiqur təsvir olunmuşdur. Heç bir şübhə yoxdur ki, bu rəsmdə ağaclar dünyanın dörd yönünü əks etdirmişdir. Türkdilli xalqlar həyat ağacını müqəddəsləşdirərək ona sitayiş etmişlər. Qədim türk əfsanələrində həyat ağacı türk qəbilələrinin anasıdır.

Bəzi türk tayfaları həyat ağacını qayın ağacı şəklində düşünmüş və onun uşaqları müdafiə edən Ana Tanrı Umayla göydən endiyinə inanmışlar. Şaman davullarında həyat ağacı zirvəsində bir quş oturan qayın ağacı təsvir edilmişdir. Ümumiyyətlə, zirvəsində quş oturan həyat ağacı rəsmləri türk xalqlarının inancında geniş yer tutmuşdur. İssık kurqanında tapılmış qızıl döyüşçünün dəbilqəsində dağın üzərində ağac, onun zirvəsində də kiçik quş heykəli vardır. Azərbaycanın folklor nümunələrində yeni şah seçilərkən şahlıq quşu uçurulması kimi adətin olduğu da bəllidir.

Həyat ağacının qadınla bağlılığı etnoqrafik məlumatlarda da öz əksini tapmışdır. Azərbaycanın, o cümlədən Naxçıvanın bəzi rayonlarında gəlin köçürülərkən şax-budaq bəzəmə adəti olmuşdur. Gəlin evdən çıxarkən qız evində bəy üçün şax bəzədilirdi. Budaqdan şəkər və müxtəlif meyvələr asılırdı. Oğlan tərəfi bu ağacdan bir şey qoparmağa çalışırdı. Ağacdan hədiyyə qoparmağa çalışan adam qız evi tərəfindən tutulsaydı, döyülür və qopardığı alınırdı. Lakin o, ələ keçmədən hədiyyəni bəyə çatdıra bilsəydi, mükafat alırdı. Bu nümunədə evlənmə ilə bağlı olan, gəlini təmsil edən ağac toxunulmaz idi.

Həyat ağacının, ya da ağac budaqlarının məhsuldarlıqla bağlı müqəddəs evlənmə səhnələrində təsvir edilməsinin ilk nümunələri Şumer mədəniyyətindən məlumdur. Türk mifologiyasında həyat ağacı kosmik-mifoloji dünyanı bütövlükdə əks etdirir. Onun zirvəsi göy üzünün, gövdəsi Yerin, kökləri o biri dünyanın simvolu olmuşdur. Bu baxımdan bəzi nümunələrə nəzər salmaq yerinə düşər. Azərbaycan nağıllarında Simurq quşu yuvasını ağacın başında qurur, Göytürklərin inancına görə, böyük tanrı Oğan yerin ortasında bitmiş uca bir şam ağacının zirvəsində otururdu.

Xalçalarda çox görülən naxışlardan biri də xaçşəkilli toxumalardır. Bədxah qonşularımız olan ermənilər xalılarımızda rast gəlinən xaç işarələrini təhrif edərək onları ermənilərə aid etməyə cəhd etmişlər. Halbuki xaçşəkilli naxışlar qədim türk xalqlarının inancları ilə bağlıdır. Xaçşəkilli işarələr xristianlığın yaranmasından 7-6 min il əvvəl mövcud olmuş və qədim insanların dini-mifoloji görüşlərini əks etdirmişdir. Qədim Şərq sənətinin sevimli motivi olan xaçşəkilli işarələr skiflərdən yunanlara, onlardan isə Avropaya keçmişdir. Xalılarda bu rəsmlərin müxtəlif variantları vardır. Kilimlərdən birinin üzərində çoxlu xaç rəsmi toxunmuşdur. Digər xalılarda ucları haçalanan xaç rəsmlərinin qədim nümunələri Orta Asiyada Sapalitəpə yaşayış yerində tapılmışdır. Bəzi xalılarda xaçşəkilli rəsmlər insanı və heyvanı xatırladan simvollardan ibarətdir. Araşdırmalar göstərir ki, xaç rəsmləri Günəşin, xeyirxah tanrılarla bağlı quş və insanların simvolu olmuşdur. Tədqiqatçılar Gəmiqayadakı bəzi xaç rəsmlərinin insana bənzədiyini qeyd etmişlər. Gəmiqayada bu tip rəsmlərin ov səhnələrində verilməsi onların astral simvollarla bağlı olduğunu göstərir. Sarıdərə nekropolunda daş qututipli qəbirlərdən birinin qapaq daşları üzərində quş rəsmi və xaçşəkilli işarələr qazılmışdır. Qədim qəbir abidələrində rast gəlinən bu işarələr o biri dünyaya yola salınan insanların ruhunun qorunması ilə bağlı olmuşdur. Sibir xalqlarının, o cümlədən yakutların xalq sənətində rast gəlinən xaç işarələri qoruyucu funksiya daşımışdır. Azərbaycanın müasir xalq sənəti nümunələrində gördüyümüz xaçşəkilli işarələr də qədim inanclarla bağlıdır. Xalılarda xaç rəsmləri bəzən haçalanaraq qoyun buynuzuna bənzədilmişdir. Qədim sənət nümunələrini nəzərdən keçirdikdə bunların məzmunu tamamilə aydın olur. E.ə. VI minilliyə aid Samarra qabları üzərində xaç şəklində düzülmüş insan, keçi və quş rəsmləri vardır. Xaç rəsmlərinin insana, keçiyə, yaxud quşa bənzədilməsinin tarixi kökləri də bununla bağlıdır. Bu tip rəsmlər I Kültəpə və Qızılburundan aşkar edilmiş e.ə. IV-II minilliyə aid qablar üzərində də vardır. Göstərilən faktlar xaçşəkilli işarələrin dünyanın dörd yönünü əks etdirdiyini təsdiq edir. Yuxarıda qeyd etdiyimiz kimi, bu, qədim türk mifologiyası üçün xarakterik olmuşdur.

Araşdırmalar xaçşəkilli işarələrin dünyanın dörd yönünü simvolizə etdiyini sübut edir. Türk mifologiyasında, o cümlədən Azərbaycan türklərində dünya şaquli olaraq üçqatlı, üfüqi olaraq dördyönlü düşünülmüşdür. Bəzən beşlik şəklində düşünülən bu ideologiya xalılar üzərində də öz əksini tapmışdır. Yerüstü məkanın dördyönlü quruluşu haqqında görüşlər və onun dörd yönündən hər birinin qoruyucu tanrısı olması ilə bağlı inanclar dünyanın bir çox xalqlarının mifologiyasında yer almışdır. Bu qoruyucular bəzən zoomorf, bəzən isə antropomorf rəsmlərlə göstərilmişdir.

Araşdırmalara əsaslanaraq xalılar üzərindəki müxtəlif təsvirlərin Azərbaycan türklərinin mifologiyasını əks etdirdiyini və bu düşüncələrin çox qədim zamanlara aid sənət əsərlərindən qaynaqlandığını deyə bilərik. Üzərində müxtəlif təsvirlər olan xalıların bir ev əşyası olmaqla bərabər, insanlara uğur, bolluq və bərəkət gətirdiyinə, onları bəd qüvvələrdən qoruduğuna inanılmışdır.

**Vəli BAXŞƏLİYEV**
*AMEA-nın müxbir üzvü*

## Sağlamlıq imkanları məhdud məktəbli uşaqlar Ağbulaq İstirahət Mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”na uyğun olaraq, sağlamlıq imkanları məhdud uşaqların yay mövsümündə mənalı istirahətinin təşkili məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi iyun ayının 4-dən Ağbulaq İstirahət Mərkəzində sağlamlıq imkanları məhdud 47 məktəbli uşağın valideynlərinin müşayiəti ilə istirahətini təşkil edib.

Yeddigünlük istirahət müddətində sağlamlıq imkanları məhdud uşaqların istedadlarının aşkara çıxarılması, habelə əyləncəli tədbirlərin keçirilməsi məqsədilə proqram hazırlanıb.

Proqrama uyğun olaraq, istirahət günlərində uşaqların iştirakı ilə “Çərpələng” yarışı keçiriləcək, fiziki imkanları məhdud ifaçılardan ibarət “İnam” musiqi qrupu uşaqlar qarşısında konsert proqramı ilə çıxış edəcək. Tədbirlər planında tennis, dama yarışlarının və karaoke müsabiqəsinin keçirilməsi və təbiət gəzintisinin təşkili də nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## “Enactus” Azərbaycan IX milli yarışının qalib komandası mükafatlandırılmışdır

*Xəbər verdiyimiz kimi, Naxçıvan Dövlət Universiteti (NDU) “Bizim sahibkarlıq fəaliyyətimiz” (Enactus) beynəlxalq proqramı üzrə IX milli yarışın qalibi olmuş və bu il oktyabrın 22-dən 24-dək Çinin paytaxtı Pekində keçiriləcək dünya kuboku yarışlarında ölkəmizi təmsil etmək hüququnu qazanmışdır.*

İyunun 3-də Naxçıvan Dövlət Universitetində yarışın qalibi olmuş universitet komandasının mükafatlandırılması mərasimi keçirilmişdir.

Tədbiri açan universitetin rektoru, professor Saleh Məhərrəmov bu uğurun muxtar respublikada elm və təhsilin inkişafına, istedadlı gənclərə göstərilən dövlət qayğısı sayəsində qazanıldığını bildirmişdir.

Universitetin “Enactus” komandasının rəhbəri, İqtisad fakültəsinin dekan müavini Müslüm Cabbarzadə beynəlxalq proqram üzrə IX milli yarışın finalında gərgin mübarizə getdiyindən söz açmışdır. Diqqətə çatdırmışdır ki, Naxçıvan Dövlət Universitetinin komandası yüksək peşəkarlıq nümayiş etdirmiş, onun bir-birindən maraqlı biznes layihələri münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilmişdir.

Naxçıvan Dövlət Universitetinin rektoru, professor Saleh Məhərrəmov “Enactus”un rəhbəri Müslüm Cabbarzadəyə, komandanın kapitanına və komanda üzvlərinə kubok, diplom və mükafatları təqdim edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulamışdır.

## Naxçıvan Özəl Universitetinin “Enactus” komandası vitse-çempion adına layiq görülmüşdür

*Mayın 30-da Bakı şəhərindəki “Monolit Plaza” mehmanxanasında “Bizim sahibkarlıq fəaliyyətimiz” (Enactus) beynəlxalq proqramı üzrə IX milli yarış keçirilmişdir. Milli yarışı Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu və “Gənclər azad sahibkarlıq fəaliyyətində” İctimai Birliyi birgə təşkil etmişdir.*

Yarışın məqsədi gəncləri sahibkarlıq fəaliyyətinə təşviq etmək, tələbələrə azad sahibkarlıq ideyasını aşılamaq, onların təşkilatçılıq, idarəçilik və komandada işləmək bacarıqlarını inkişaf etdirməkdən ibarətdir. “Enactus” proqramı çərçivəsində Azərbaycanın təhsil müəssisələrindən 10 komandanın biznes layihələrinin təqdimatı keçirilmişdir. Münsiflər heyəti layihələri “Enactus” meyarları əsasında seçmişlər.

Məlumat üçün qeyd edək ki, Naxçıvan Özəl Universitetinin “Enactus” komandası yarışda “səsli kitab”, “ikili istehsal”, “yenilənən bərəkət” layihələri ilə çıxış etmişdir. Naxçıvan Özəl Universitetinin komandası yarışda II yerin sahibi olmuşdur.

Bundan başqa, Naxçıvan Özəl Universitetinin “Enactus” komandasının təqdim etdiyi “səsli kitab” layihəsi yarışda iştirak edən Azərbaycan ali təhsil müəssisələri içərisində “ən yaxşı biznes və sahibkarlıq yarışması tətbiq olunan layihə” nominasiyası ilə təltif olunmuşdur.

**Xəbərlər şöbəsi**

## Şahmat Mərkəzində növbəti turnirə start verilib

Naxçıvan Şahmat Mərkəzində 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş mərkəzin daxili təsnifat turnirinə start verilib. Turnirdə 150-dən çox şahmatçı qüvvəsini sınayır. Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının təşkil etdiyi yarışda zəka sahibləri bütün dərəcələr üzrə mübarizə aparırlar. Sonda qalib olanlara idman dərəcələri veriləcək.

Qeyd edək ki, bu gün turnirin son günüdür. Növbəti həftə isə Şahmat Federasiyası daha bir yarış təşkil edəcək. Belə ki, 7-8 iyun tarixlərində Şahmat Mərkəzində Naxçıvan Muxtar Respublikası açıq turnirinə start veriləcək. Sürətli şahmat üzrə keçiriləcək açıq turnirdə 200-ə yaxın şahmatçının iştirak edəcəyi gözlənilir.

## Boksçularımız Azərbaycan çempionatından medallarla qayıdıblar

Boks üzrə yeniyetmələr arasında keçirilən Azərbaycan çempionatına yekun vurulub. Çempionatda Naxçıvan Muxtar Respublikasının boksçuları uğurla çıxış ediblər. Belə ki, muxtar respublika təmsilçisi İman Vəliyev fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 76 kiloqram çəki dərəcəsində mübarizə aparan boksçumuz bütün rəqiblərini məğlub edərək qızıl medala layiq görülüb.

40 kiloqramda Muxtar Fərzəliyev yarımfinala kimi yüksəlsə də, bu mərhələdə məğlub olub və çempionatın bürünc mükafatını qazanıb. Onunla yanaşı, 56 kiloqramda Elçin Məmmədov və 65 kiloqramda Tural Əhmədli Azərbaycan çempionatında bürünc mükafatın sahibi olublar.

Sonda mükafatçılara diplom, medal və qiymətli hədiyyələr verilib.

**Ceyhun MƏMMƏDOV**

### *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası rabitə və informasiya texnologiyaları naziri Rövşən Məmmədov və nazirliyin kollektivi Şərur Rayon Rabitə İdarəsinin işçisi
**TOFİQ ABDULLAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Bioresurslar İnstitutunun direktoru Tariyel Talıbova, əzizi
**ƏRUS XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin kollektivi idarənin rəisi Xaləddin Rüstəmova, anası
**BƏYİM XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Dəri-Zöhrəvi Xəstəlikləri Dispanserinin baş həkimi Xədicə Qazıyeva və dispanserin kollektivi iş yoldaşları Gülnarə Qasımovaya, əzizi
**BƏHLULUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun kollektivi institutun direktoru Tariyel Talıbova, əzizi
**ƏRUS XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Zümrüd” Tikiş Müəssisəsinin direktoru Etibar Hacıyev və müəssisənin işçilərindən Mehrəngiz Əkbərova, Hürriyyə Əkbərova, Zümrüd Hacıyeva və Emin İbrahimov Xaləddin Rüstəmova, anası
**BƏYİM XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Qara Fərzəliyev və şuranın üzvlərindən Heydər Heydərov, Sultan İsmayılov, Əkbər Ağayev və Firudin Süleymanov veteran
**MƏMMƏD BAĞIROVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin kollektivi Hüseyn Əsgərova, oğlu
**ELXANIN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin dekanlığı Rafiq Rəhimova, əzizi
**ŞƏMSƏDDİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 496